# Məlahət HÜMMƏTQIZI - 50



Hörmətli Məlahət xanım!

Sizi - istedadlı yazıçını yubileyiniz münasibətilə təbrik edirik.

Siz ixtisasca həkim olsanız da, geniş ictimaiyyət sizi yazıçı kimi tanıyır. Yazıb-yaratmağa hələ Azərbaycan Tibb Universitetinin tələbəsi ikən başlamısınız. Mətbuatda şeirləriniz, publisistik yazılarınız dərc olunmuşdur. Yeni əsrin ilk illərində "Atasız dünyam", "Tənha yuva" adlı şeir kitablarınız işıq üzü görüb. Povest və hekayələrdən ibarət "Qız anası" kitabınızı yaradıcılığınızın ikinci mərhələsinin başlanğıcı hesab etmək olar. Çox keçməmiş "Villa" kitabınızı oxuculara təqdim etmisiniz. 2020-ci ildə dünyada tüğyan edən pandemiyaya qarşı mübarizəyə qoşulmuş, sona qədər həkimlik vəzifənizi ləyaqətlə yerinə yetirmisiniz. 2021-ci ildə çapdan çıxmış "Ağ libaslı mələk" kitabınız bilavasitə şahidi olduğunuz, gördüyünüz, yaşadığınız hadisələrə, həmçinin mübariz, fədakar həkimlərə həsr olunmuşdur.

Hörmətli Məlahət xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 11 iyun.- S. 32.**